# *GİKM:* "Fəaliyyətimiz gənclərin karyera quruculuğuna dəstək və onların vətənpərvər ruhda yetişməsinə yönəlib"

**"Gənclərin İnkişaf və Karyera Mərkəzinin (GİKM) 11 regional nümayəndəliyi və 44 bölməsi gənclərlə çalışır. Fəaliyyətimiz gənclərin karyera quruculuğuna dəstək, şəxsi inkişafına müsbət təsir göstərmək, onların vətənpərvər ruhda yetişməsinə yönəlib. Həmçinin dövlət tərəfindən yaradılan imkanlar barədə region gənclərini məlumatlandırmaq da əsas istiqamətlərimizdəndir".**

Bu sözləri Gənclərin İnkişaf və Karyera Mərkəzinin baş direktoru Azər Əliyev deyib.

Gənclərimiz GİKM-ə qoşulmaqla bir sıra imkanlar əldə edirlər. Onlar könüllülük və təcrübə proqramlarımızda komanda işi, işgüzar mühitdə davranış qaydalarını öyrənmiş olurlar. Şəhərdə yaşayan gənclər ucqar kəndlərdə yaşayan gənclərlə birgə sosial bacarıqlarını inkişaf etdirə bilirlər. Gənclər üçün yaradılan imkanlardan biri də onların karyera quruculuğuna dəstəklə əlaqəlidir. GİKM bu istiqamətdə gənclərin müəyyən bilik və bacarıqlara yiyələnməsinə imkan yaradır.

Gənclər GİKM-də həm də öz ideyalarını reallaşdırır və fəaliyyətlərini təşkil edirlər. Bu çərçivədə onlarda qərarvermə bacarığı, eyni zamanda təşkilatçılıq və liderlik bacarıqlarını inkişaf etdirmiş olurlar.

GİKM-in əsas fəaliyyəti 14-29 yaşarası gəncləri əhatə edir, bu baxımdan bizim üçün hər gün gənclər günüdür, daha doğrusu, gəncliyin günüdür.

Azərbaycan.- 2024.- 3 fevral, № 23.- S.11.